İSESKO Azərbaycan mədəniyyətinin İslam ölkələrinə inteqrasiyasında əhəmiyyətli rol oynayır

Azərbaycan Respublikası 1991-ci ildən İSESKO-nun üzvüdür. Həmin ildən başlayaraq ölkəmizlə bu beynəlxalq təşkilat arasında münasibətlər formalaşmağa başlamışdır. Respublikamızın birinci xanımı Mehriban Əliyevanın 2006-cı il noyabrın 24-dən İSESKO-nun xoşməramlı səfiri seçilməsindən sonra bu əlaqələr daha intensiv xarakter almağa başlamışdır.

Bu gün İSESKO İslam dünyasını birləşdirmək istiqamətində uğurlu addımlar atır. Azərbaycan Prezidenti İlham Əliyev İSESKO-nun müasir dövr üçün mühüm əhəmiyyət kəsb etdiyini dəfələrlə vurğulamışdır: "İSESKO-nun əsas vəzifəsi İslam aləmində elmin, təhsilin inkişafıdır, İslam aləminin zəngin mədəni irsinin qorunmasıdır. İSESKO bu sahədə çox böyük uğurlara nail olubdur. Eyni zamanda, bu gün dünya miqyasında beynəlxalq təşkilatlar arasında da İSESKO-nun öz yeri var. Son illər ərzində baş direktor cənab Əbdüləziz Osman əl-Tüveycrinin rəhbərliyi ilə İSESKO dünya miqyasında çox önəmli və böyük nüfuza malik olan təşkilata çevrilibdir".

İSESKO-nun baş direktoru Ə.O. əl-Tüveycri həmişə ölkəmizlə əməkdaşlığın səviyyəsindən razılığını ifadə etmişdir: "İSESKO bütün dünyaya çatdırmalıdır ki, Azərbaycan qədim və zəngin mədəniyyətə sahibdir. Bu ölkə ilə əməkdaşlıq sahəsində imzalanan sənədlərin həyata keçirilməsi üçün biz öz tərəfimizdən hər tələbi yerinə yetirəcəyik və bu əməkdaşlıq digər üzv dövlətlər üçün nümunə olacaqdır".

Həqiqətən də, bu gün Azərbaycanın İSESKO ilə münasibətləri İslam dünyasına nümunədir. Təşkilatın rəhbəri 2006-cı ildən etibarən respublikamızda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir. Bu sırada Bakıda keçirilmiş aşağıdakı tədbirlərin – "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans (1–2 noyabr 2007-ci il), Heydər Əliyev Fondunun təşəbbüsü, UNESKO və İSESKO-nun dəstəyi ilə keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forum (10–11 iyun 2008-ci il), "Bakı – İslam mədəniyyətinin paytaxtı – 2009" mədəniyyət ilinin açılış mərasimi (18 fevral 2009-cu il), İslam ölkələri mədəniyyət nazirlərinin VI konfransı (13–15 oktyabr 2009-cu il), Dünya dini liderlərinin Bakı sammiti (26–27 aprel 2010-cu il) və Ümumdünya mədəniyyətlərarası dialoq və digər tədbirlərin adlarını qeyd etmək yerinə düşər.

Ötən illər ərzində milli mədəniyyətimizin İslam ölkələrində təbliği istiqamətində əsaslı layihələr reallaşdırılmışdır. İSESKO rəhbərliyinin təşkilatçılığı ilə görkəmli şərqşünas alim A.İmanquliyevanın "Müasir ərəb ədəbiyyatının korifeyləri" əsəri və "Ərəb hərfləri ilə Azərbaycan yazısı" kitabı ərəb dilində çap edilmişdir.

Mədəniyyət naziri və İSESKO üzrə Milli Komissiyanın sədri Əbülfəs Qarayevin rəhbərliyi, İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycri, İSESKO üzrə Milli Komissiyanın və Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam mədəniyyətinin paytaxtı" elan olunması ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi üzvlərinin iştirakı ilə keçirilən iclasda İSESKO Azərbaycan münasibətləri, İSESKO üzrə Azərbaycan Milli Komissiyasının fəaliyyəti, 2017-ci il "İslam Həmrəyliyi ili" çərçivəsində keçirilmiş tədbirlər və görülmüş işlər, eyni zamanda, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar tədbirlər planına əsasən görülən işlər müzakirə edilmişdir. Açılış nitqi ilə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev son illərdə ölkəmizin uğurları, İslam dünyası ilə əməkdaşlıq, ölkə başçısı tərəfindən elan edilmiş "İslam Həmrəyliyi ili" çərçivəsində təşkil olunan tədbirlər, xüsusilə İslam Həmrəyliyi Oyunları, 2017-ci ildə Bakı şəhərində keçirilmiş 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, onun çərçivəsində həyata keçirilmiş layihə və tədbirlər barədə məlumat vermişdir. Eyni zamanda, İSESKO-nun bir tərəfdaş kimi bu hadisələrin beynəlxalq miqyasda təbliğində fəallığının vacibliyi diqqətə çatdırılmış və 2018-ci ildə Naxçıvanın "İslam mədəniyyətinin paytaxtı" seçilməsi barədə iştirakçılar məlumatlandırılmışdır.

İSESKO-nun aylıq xüsusi jurnalında Azərbaycana həmişə geniş yer ayrılır. Bu da İslam ölkələrində mədəniyyətimizin, turizm potensialımızın təbliğində əhəmiyyətli rol oynayır.

Respublikamızda fəaliyyət göstərən Kainat Gənclik Mərkəzi 2011 və 2012-ci illərdə İSESKO baş direktoruna müraciət edərək, İslam dünyası gənclərinin (20 yaşadək) klassik musiqi ifaçılığı ilə bağlı beynəlxalq müsabiqəsinin keçirilməsi layihəsinə maliyyə yardımı göstərilməsini xahiş etmişdir. İSESKO rəhbərliyi bu müraciətə cavab olaraq, 10 min ABŞ dolları ayırmışdır.

Bu təşkilatla münasibətlər nəticəsində elmi ideyalar, mədəni müxtəliflik, sosial sahələri əhatə edən layihələr gerçəkləşib. Təşkilatın nəşrləri işıq üzü görüb, QHT sektoru və İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələr gücləndirilib.

2015-ci il noyabrın 26-dan 27-dək İSESKO Baş Konfransının 12-ci sessiyasının və İcraiyyə Şurasının 36-cı iclasının Bakı şəhərində təşkili Azərbaycanın İSESKO, həmçinin ona üzv dövlətlərlə əlaqələrinin möhkəmləndirilməsinə əhəmiyyətli töhfəsini verdi və gələcək perspektivlər üçün yeni imkanlar yaratmış oldu.

Konfransın sədri, mədəniyyət naziri Əbülfəs Qarayevin müvafiq əmri ilə İSESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının Katibliyi funksiyasının yerinə yetirilməsi nazirliyin beynəlxalq əməkdaşlıq şöbəsinə həvalə edilmişdir. Həmin şöbənin müdiri Vasif Eyvazzadə İSESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi təyin edilmişdir.

Həmçinin, qərara alınmışdır ki, komissiyanın ildə iki dəfə toplantısı təşkil edilsin, 2016-2018-ci illər üçün tədbirlər planının hazırlanması təmin olunsun. Bu plan hazırlanmış və uğurla reallaşmışdır.

2016-cı il oktyabrın 4-dən 5-dək Mərakeş Krallığının Rabat şəhərində İSESKO-nun İcraiyyə Şurasının iclası, həmin ilin oktyabrın 27-dən 28-dək Tunis Respublikasının Tunis şəhərində İSESKO-ya üzv ölkələrin təhsil nazirlərinin birinci konfransı keçirilmiş və hər iki tədbirdə Azərbaycanın rəsmi nümayəndə heyəti iştirak etmişdir.

2016-cı il noyabrın 25-də Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin Naxçıvanda ilk iclası keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov tədbirdə çıxış etmişdir. O, Naxçıvan şəhərinin 2018-ci ildə "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi ilə bağlı qərarın 2009-cu ilin oktyabrında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakı şəhərində keçirilən altıncı konfransında qəbul edildiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, İslam mədəniyyəti nümunələri ilə zəngin olan, bəşər sivilizasiyasına dəyərli töhfələr vermiş Azərbaycanın 5 min illik tarixə malik qədim şəhəri Naxçıvanın " İslam mədəniyyətinin paytaxtı" elan edilməsi ilə bağlı qərarı əsaslıdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli sərəncamına əsasən Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmışdır. İSESKO tərəfindən bu məsələ yüksək qiymətləndirilmişdir və təşkilatın nümayəndə heyəti bu tədbirlərdə yaxından iştirak etmişdir.

İSESKO-nun baş direktoru Ə.O. əl-Tüveycri Ümumdünya Mədəniyyətlərarası Dialoq, Bakı Humanitar forumlarının hər birinin iştirakçısı olmuşdur.

2019-cu il yanvarın 18-də 20 Yanvar faciəsinin 29-cu ildönümü münasibətilə İSESKO-nun saytında təşkilatın baş katibi Əbdüləziz əl-Tüveycrinin adından ilk dəfə olaraq bəyanat yayılmış və bu, insanlığa qarşı bir cinayət kimi pislənilmişdir. Bəyanatda dünya ictimaiyyətinə və beynəlxalq insan hüquqları təşkilatlarına faciəyə hüquqi qiymətin verilməsi və beynəlxalq hüquqa uyğun olaraq bu cinayəti törətmiş şəxslərin cəzalandırılmasına çağırış ifadə edilmişdir.

Azərbaycanın İSESKO ilə münasibətləri ildən-ilə genişlənməkdədir. İSESKO-nun baş direktoru Əbdüləziz əl-Tüveycri bu əlaqələr barədə deyib: " Azərbaycan İSESKO-ya daxil olduğu vaxtdan bu yana böyük inkişaf yolu keçib. Biz əlaqələrimizin hazırkı səviyyəsindən məmnunuq. Dünyada belə bir tendensiya mövcuddur ki, müsəlman dövlətləri ilə bağlı mənfi rəy yaradılır. Bütün bunlara sədd çəkməliyik. Azərbaycan müasir müsəlman aləminin mirvarisidir. Bu ölkənin getdiyi yol sabitlik və inkişaf yoludur. Biz Azərbaycandan çox şeylər götürə bilərik".

Azərbaycanın milli mədəniyyətində İslam dəyərlərinin önəmli yer tutması, milli mədəniyyətimizin formalaşmasında və inkişafında İslam mədəniyyətinin əvəzsiz rol oynaması bu əməkdaşlığa güclü stimul verir.

M.MÜKƏRRƏMOĞLU,
"Xalq qəzeti"

Xalq qəzeti .- 2019.- 26 sentyabr.- S.3.